Qədim Diyar Oktyabr 2026, Cild: 8, Sayı: 10, s. 103−109
Ancient Land October 2026, Volume: 8, Issue: 10, pp. 103−109
DOI: https://doi.org/10.36719/2706-6185/64/103-109

Azərbaycan diasporasında mədəni kimlik, milli irs və milli birlik: 35 illik təcrübənin təhlili

Səidə Quliyeva[1*], Asəf Hacıyev[1], Ulduz Paşayeva[2], Murad Əsədov[2]

Xülasə. *Tədqiqatın əsas məqsədi azərbaycanlı mühacirlərin təşkilatlanma prosesini və diaspora fəaliyyətinin əsas istiqamətlərini araşdırmaq, milli kimliyin və mədəni dəyərlərin qorunması mexanizmlərini müəyyənləşdirmək, eləcə də "Azərbaycançılıq" ideologiyasının formalaşması və inkişafında mühacir təşkilatlarının rolunu təhlil etməkdir. Tədqiqatın mənbə bazasını rəsmi dövlət sənədləri, diaspora təşkilatlarının materialları, eləcə də mövzu üzrə nüfuzlu elmi tədqiqatlar təşkil edir. Tədqiqatın metodoloji əsasını ədəbiyyat təhlili və müqayisəli-tarixi təhlil metodlarının vəhdəti təşkil edir. Bu metodoloji yanaşma çərçivəsində mövcud nəzəri konsepsiyalar və elmi yanaşmalar əsas götürülərək azərbaycanlı mühacirlərin təşkilatlanma prosesi, diaspora fəaliyyəti, milli kimliyin və mədəni dəyərlərin qorunması, habelə "Azərbaycançılıq" ideologiyasının formalaşması və inkişafı ilə bağlı tarixi proseslər sistemli şəkildə təhlil edilmişdir. Tədqiqatın nəticələri göstərir ki, Azərbaycan diasporasının formalaşması və inkişafı müxtəlif tarixi mərhələlərdə dövlətin diqqət mərkəzində olmuşdur. "Azərbaycançılıq" ideologiyası vətənlə diaspora arasında milli-mənəvi və ideoloji əlaqələrin formalaşmasında mühüm birləşdirici amil kimi çıxış etmişdir. Müasir dövrdə Azərbaycan diasporasının fəaliyyətinin müxtəlif ölkələrdə yaşayan türk icmaları ilə qarşılıqlı əlaqələri də əhatə etməsi onun türk dünyasında mədəni və ictimai əlaqələrin inkişafına verdiyi töhfəni ön plana çıxarır.*

Açar sözlər: *Azərbaycan diasporası, diaspora təşkilatlanması, Azərbaycançılıq, mədəni kimlik, türk dünyası*

---

[1]Bakı Dövlət Universiteti, Tarix üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
[2]Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
[*]Məsul müəllif. E-poçt: saidaquliyeva@bsu.edu.az
Daxil oldu: 26 May 2026; Qəbul edildi: 15 Sentyabr 2026; Onlayn dərc edildi: 28 Oktyabr 2026
© Müəllif(lər) 2026. Bu açıq girişli məqalə Creative Commons Attribution–NonCommercial 4.0 Beynəlxalq Lisenziyasının (CC BY-NC 4.0) şərtlərinə uyğun olaraq yayımlanmışdır.

Cultural Identity, National Heritage, and National Unity in the Azerbaijani Diaspora: An Analysis of 35 Years of Experience

Saida Guliyeva[1*], Asaf Hajiyev[1], Ulduz Pashayeva[2], Murad Asadov[2]

Abstract. *The main purpose of the study is to examine the organizational process of Azerbaijani emigrants and the principal directions of diaspora activity, to identify the mechanisms for preserving national identity and cultural values, and to analyze the role of emigrant organizations in the formation and development of the ideology of "Azərbaycançılıq" (Azerbaijanism). The source base of the study consists of official state documents, materials of diaspora organizations, and authoritative scholarly research on the subject.*

The methodological basis of the study is the unity of literature analysis and comparative-historical analysis. Within this methodological approach, existing theoretical concepts and scholarly perspectives were taken as a basis, and the historical processes related to the organization of Azerbaijani emigrants, diaspora activity, the preservation of national identity and cultural values, and the formation and development of the ideology of Azerbaijanism were analyzed systematically. The results of the study show that the formation and development of the Azerbaijani diaspora have been a focus of state attention at various historical stages. The ideology of Azerbaijanism has served as an important unifying factor in shaping national-spiritual and ideological ties between the homeland and the diaspora. In the modern period, the fact that the activity of the Azerbaijani diaspora also encompasses interaction with Turkic communities living in various countries highlights its contribution to the development of cultural and social ties within the turkic world.

Keywords: *Azerbaijani diaspora, diaspora institutionalization, Azerbaijanism, cultural identity, turkic world*

---

[1]Baku State University, PhD in History, Baku, Azerbaijan
[*]Corresponding author. E-mail: saidaquliyeva@bsu.edu.az
[2]Baku State University, Baku, Azerbaijan
Received: 26 May 2026; Accepted: 15 September 2026; Published online: 28 October 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Dövlət müstəqilliyinin bərpasından ötən 35 illik dövr Azərbaycan diasporasının fəaliyyətinin elmi-nəzəri baxımdan qiymətləndirilməsini zəruri etmişdir. 1991-ci ildə dövlət müstəqilliyinin bərpası və Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi Azərbaycan tarixşünaslığında diaspor məsələlərinin öyrənilməsi ilə bağlı yeni tədqiqat istiqamətlərinin formalaşmasına mühüm zəmin yaratmışdır. Ötən dövr ərzində mühacirət və diaspora məsələləri ilə bağlı çoxsaylı tədqiqatlar aparılmış, bu sahənin müxtəlif aspektlərini əhatə edən mühüm elmi nəticələr əldə edilmişdir. Müxtəlif ölkələrdə diaspora məsələlərinə dair aparılan araşdırmalar göstərir ki, diaspora kimliyi dəyişməz və sabit irs kimi deyil, milli-ictimai hərəkatların və siyasi strukturların qarşılıqlı təsiri əsasında formalaşan, sosial baxımdan konstruksiya edilən və siyasi baxımdan səfərbər olunan dinamik fenomen kimi nəzərdən keçirilir.

William Safran və Robin Cohenlə bağlı olan yanaşmalar diasporaları ortaq mənşə hissi, kollektiv yaddaş və vətənə sadiqlik vasitəsilə müəyyənləşdirir (Safran, 1991; Cohen, 2008; Adamson, 2012). Bu nəzəri müddəalar Azərbaycan nümunəsi ilə birbaşa əlaqəlidir. Çünki azərbaycanlılar üçün vətənə sadiqlik, milli kimliyin və mədəni dəyərlərin qorunması, həmçinin təbliği diasporanın diqqət mərkəzindədir. Bu səbəbdən də diaspora barədə tədqiqatların araşdırılması aktuallıq kəsb edir.

Azərbaycanlıların müasir dövrdə yayıldıqları ərazilər, əsasən, XIX əsrdən başlayan kütləvi miqrasiyalarla əlaqəlidir. XIX əsrdə Rusiya imperiyasının, XX əsrin əvvəlində bolşeviklərin Qafqazı işğalı, daha sonra isə Sovet İttifaqının dağılması kütləvi miqrasiyanı gücləndirmişdir (Paşayeva, 2009, s. 217–221; Quliyeva, 2012, s. 262–274; Paşayeva, 2023b, s. 178–180). Türkiyə Respublikası azərbaycanlı miqrantlar üçün dil və mədəni bağlılıq baxımından əsas coğrafi-mədəni istiqamətə çevrilmişdir. Onların bir hissəsi sonradan Qərbi Avropa dövlətlərinə - Polşa, Almaniya, Hollandiya, Belçika, Danimarka və İsveçrəyə köçmüş, azərbaycanlı diaspora nümayəndələri həmin ölkələrdə mövcud türk icmaları ilə əlaqələr qurmuşlar (Quliyeva, 2021, s. 111–112; Pasayeva, 2023a, s. 95–99). Vacib məqamlardan biri ondan ibarətdir ki, bu coğrafi dağınıqlıq xaricdə yaşayan azərbaycanlıların vətənlə bağlılığının zəifləməsinə səbəb olmamışdır. Əksinə, hətta qloballaşma

dövründə belə onlar milli adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini və mədəni irsini qoruyub saxlamağa çalışmış, bu dəyərlərin nəsildən-nəslə ötürülməsini diaspora icması kimi formalaşan kollektiv kimliklərinin mühüm tərkib hissəsi hesab etmişlər (İsgəndərli, 2020).

Metodika

Məqalədə azərbaycanlıların xaricdə təşkilatlanma prosesləri və bu proseslərin ideoloji əsaslarının araşdırılması məqsədilə müqayisəli təhlil metodundan istifadə edilmişdir. Tədqiqatın əsas diqqəti diaspora fəaliyyətinin nəzəri əsaslarına yönəldilmiş, bu məqsədlə sahə üzrə nüfuzlu elmi ədəbiyyat və tədqiqatlar təhlilə cəlb edilmişdir. Mövzu mövcud nəzəri yanaşmalar və konseptual çərçivələr əsasında araşdırılmış, müxtəlif tədqiqat nəticələrinin müqayisəli təhlili vasitəsilə Azərbaycan diasporasının təşkilatlanma xüsusiyyətlərinin müəyyənləşdirilməsinə çalışılmışdır.

Nəticə

Araşdırma göstərir ki, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması və diaspora kimliyinin formalaşmasının ilkin mərhələsində əsas amillər SSRİ-yə qarşı siyasi mübarizə, milli adət-ənənələrin və dəyərlərin qorunması olmuşdur. XX əsrin sonlarından etibarən isə münaqişə və təhlükəsizlik məsələləri, ideoloji amillər, eləcə də türk dünyası ilə formalaşdırılan mədəni əlaqələr diaspora fəaliyyətinin istiqamətlərinə təsir göstərən mühüm amillərə çevrilmişdir. Bu proseslər çərçivəsində keçirilən tədbirlərin əsas mövzularını tarixi yaddaşın, milli birliyin və milli-mədəni dəyərlərin qorunması təşkil etmişdir.

Müzakirə

Diasporanın təşkilatlanma mərhələsi

Xaricdə yaşayan azərbaycanlılar arasında Soyuq müharibə dövründə diaspora kimliyinin ilkin təzahürləri SSRİ-yə qarşı siyasi mübarizə, milli-tarixi hadisələrin və bayramların qeyd olunması formasında özünü göstərmişdir. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin işğalından sonra mühacirətdə fəaliyyət göstərən dövlət xadimləri və ziyalıların siyasi və təşkilati fəaliyyəti davam etsə də, bu fəaliyyət Avropa dövlətlərinin gözlənilən səviyyədə marağını cəlb etməmişdir. II Dünya müharibəsi dövründə Almaniyanın SSRİ-yə qarşı mübarizədə azərbaycanlı mühacirlərin potensialından istifadə etmək cəhdləri də uzunmüddətli və davamlı təşkilatlanma baxımından əhəmiyyətli nəticə verməmişdir. Bu amillərin təsiri ilə 1960–1980-ci illərdə müxtəlif ölkələrdə yaşayan azərbaycanlı icmalar arasında əlaqələr əsasən epizodik görüşlər, mədəni sərgilər, kütləvi tədbirlər və elmi konfranslar vasitəsilə həyata keçirilmişdir (İbrahimli, 1997; Şimşir, 1999). Sözügedən fəaliyyətlər ikili funksiyaya malik olmuşdur: bir tərəfdən, milli-mədəni yaddaşın qorunmasına və nəsillərarası ötürülməsinə xidmət etmiş, digər tərəfdən isə gələcək diaspora fəaliyyətinin sosial bazasının və təşkilati strukturlarının formalaşmasına zəmin yaratmışdır.

Qeyd edilməlidir ki, diaspora kimliyi tarixən ən çox böhran dövrlərində fəallaşmış, həmrəylik və mədəni mənsubiyyət hissi sürətlə kollektiv fəaliyyətə çevrilmişdir. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması məhz bu səbəblərdən də XX əsrin sonunda – Ermənistanın Azərbaycana ərazi iddiaları və Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə əlaqədar olmuşdur. Müstəqil dövlətin dünya siyasətində yer tutması bu prosesə yeni hüquqi və siyasi təkan vermişdir. Azərbaycanın səfirlik və diplomatik nümayəndəliklərinin yaradılması dövlət-diaspora münasibətlərinin yeni mərhələsinə başlamış, diplomatik kanallar təkcə siyasi əlaqələndirmə üçün deyil, həm də vətənlə mədəni və təhsil əlaqələrinin qurulması üçün vasitəyə çevrilmişdir. Əgər Azərbaycan ərazilərinin işğalı və Atəşkəs dövründə (1994-2020) diaspora təşkilatlarının fəaliyyəti bu mövzuları əhatə edirdisə, münaqişədən sonrakı dövrdə strukturlaşmış və daha geniş məqsədləri olan fəaliyyət formalaşmışdır.

Coğrafi məsafənin rəqəmsal əlaqə vasitəsilə getdikcə əhəmiyyətini itirdiyi bir dövrdə (Diminescu, 2008), vətənə bağlılıq xaricdəki azərbaycanlı kimliyinin əsas dayağı olaraq qalır. Azərbaycanlıların 35 illik diaspora təcrübəsi hazırda mədəniyyətlərarası dialoqun aparıcısı kimi çıxış edir, ev sahibi cəmiyyətlərə inteqrasiya zamanı həm Azərbaycan, həm də ümumtürk maraqlarından çıxış edir, mədəni və milli dəyərləri təbliğ edir (Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, n.d.). Ərazi bütövlüyünün bərpasından sonra 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qazandığı yeni məna və əhəmiyyət yalnız tarixi həmrəyliyin ifadəsi ilə məhdudlaşmır, həm də milli-mədəni dəyərlərin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsini ehtiva edən davamlı və gələcəyə yönəlmiş mədəni missiyanı əks etdirir.

"Azərbaycançılıq" ideologiyasının diaspora tərəfindən milli kimliyin ideoloji dayağı kimi qəbul edilməsi

Xaricdə yaşayan azərbaycanlıların ortaq ideoloji dəyərlər və milli kimlik ətrafında birləşdirilməsi istiqamətində həyata keçirilən sistemli fəaliyyət Heydər Əliyevin şəxsi təşəbbüsü ilə yeni mərhələyə keçmişdir (Novruzova, 2010; Quliyeva, 2021, s. 112–113; Diaspor quruculuğu, 2023, s. 7–38; Paşayeva, 2023b, s. 182–187; Hacıyev, 2024). 1989-cu ilin sonlarında azərbaycanlıların İranda yaşayan həmvətənləri ilə əlaqə yaratmaq və birləşmək məqsədilə sovet sərhəd maneələrini sökməsi milli həmrəylik baxımından mühüm rəmzi dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. Bu hadisə müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar arasında milli birlik və həmrəylik ideyasının ifadə formalarından birinə çevrilmiş, onların ortaq milli kimlik ətrafında həmrəyliyinin güclənməsinə təsir göstərmişdir. Bunun əhəmiyyətini qiymətləndirən Heydər Əliyev, o zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olaraq, 31 dekabr 1991-ci ili "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" elan etmişdir (Novruzova, 2010; Quliyeva, 2021; Hacıyev, 2024; Kərimova, 2025).

Heydər Əliyevin "*Azərbaycanlılar! Harada olsanız da, hansı millətin arasında yaşasanız da, yalnız Azərbaycanı - onun müstəqilliyini və ərazi bütövlüyünü - və Azərbaycan xalqının bugününü və gələcəyini düşünməlisiniz!*" (Əliyev, 1997, s. 430–435) çağırışı və onun "*Hər bir insan öz milliyyətinə görə qürur hissi keçirir. Mən də həmişə qürur hissi keçirmişəm, bu gün də qürur hissi keçirirəm ki, mən azərbaycanlıyam!*" (Əliyev, 2001) ifadəsi birlikdə milli qürur hissini gücləndirmiş və diaspora kimliyini dövlət prioritetinə çevirmişdir. "Azərbaycançılıq" ideologiyası milli kimlik quruculuğu prosesinin ideoloji təməlinə çevrilmişdir. Bu ideologiya ölkə daxilində və xaricdə yaşayan azərbaycanlıların milli birlik və həmrəylik əsasında birləşdirilməsini, milli dəyərlərin və mədəni kimliyin qorunmasını əsas məqsədlərindən biri kimi müəyyənləşdirmişdir (Levitt & Glick Schiller, 2004; Diaspor quruculuğu, 2023, s. 38–54).

Diaspora ilə əlaqələr Azərbaycan dövləti tərəfindən prioritet hesab edildiyi üçün 2001-ci ildə – Dünya Azərbaycanlılarının Həmrəylik Gününün onuncu ildönümündə Bakıda Dünya Azərbaycanlılarının I qurultayı çağırılmış və ortaq mədəni-milli gündəlik müəyyənləşdirilmişdir. 5 iyul 2002-ci ildə prezidentin sərəncamı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (2008-ci ildən Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması dövlət və diaspora əlaqələrini daha da sistemləşdirmişdir. 2001-2016-cı illərdə Bakıda (2001, 2006, 2011, 2016) və 2022-ci ildə Şuşada keçirilən qurultaylar ortaq diaspora kimliyinin möhkəmləndirilməsi baxımından mühüm mərhələ təşkil etmişdir. 2022-ci ildən sonrakı dövrdə isə diaspora fəaliyyətində münaqişə əsaslı həmrəylikdən mədəni diplomatiyaya və münaqişədən sonrakı kimliyin yenidən qurulmasına doğru transformasiya meyilləri müşahidə olunmuşdur (Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, 2025; Quliyeva, 2021, s.113–120; Paşayeva, 2023b, s. 182–186; Hacıyev, 2024). Prezident İlham Əliyev 31 dekabr 2003-cü il müraciətində bu qarşılıqlı bağlılığın mahiyyətini belə ifadə etmişdir: "*Hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq Azərbaycan dövlətinin və xalqının qayğıları ilə yaşamalıdır… Azərbaycan dövləti də dünya azərbaycanlılarının hamısına dövlətin maddi və mənəvi imkanlarından faydalanmaq şəraiti yaratmalıdır*" (Əliyev, 2009, s. 181).

1990-cı illərdə diasporanın təşkilatlanması və milli kimliyin qorunması prosesində qarşıya çıxan əsas problemlərdən biri xaricdə yaşayan azərbaycanlıların milli tarixlərini öyrənmək və ifadə etmək imkanlarının məhdudluğu, xüsusilə də tarixi baxımdan etibarlı və çoxdilli maarifləndirici materialların çatışmazlığı olmuşdur. Mövcud informasiya boşluğu sonrakı mərhələdə rəqəmsal arxivlərin və elmi internet resurslarının yaradılmasını şərtləndirmiş, gənc tarixçilərin və dövlət dəstəkli qurumların, o cümlədən milli kitabxanaların fəaliyyəti bu resursların formalaşdırılmasına əhəmiyyətli töhfə vermişdir. Azərbaycan Milli Kitabxanası, Prezident Kitabxanası və AMEA Tarix İnstitutunun ixtisaslaşmış arxivləri daxil olmaqla hərtərəfli dövlət dəstəkli portallar indi tarixi haqsızlıqları və mədəni irsi sənədləşdirir, diaspora təhsilinin qeyri-rəsmi, daimi əlçatan sistemə çevirirdi (Quliyeva, 2021, s. 116–120). Bu elektron bazalar diasporanın müdafiə fəaliyyətinə sadəcə xidmət etmək əvəzinə, onunla yanaşı fəaliyyət göstərir. Yeni texnoloji imkanlar vətəndən 100 il əvvəl aralı düşmüş nəsillərə tarixi yaddaşın, milli-mənəvi dəyərlərin ötürülmə mexanizmidir. Görülən bu tədbirlərə baxmayaraq problemlər hələ də qalmaqdadır.

Türk dünyası ilə mədəni körpülər

Azərbaycan mühacirətinin əsas ilkin istiqamətlərindən birinin Türkiyə olması burada məskunlaşan azərbaycanlıların yerli cəmiyyətə inteqrasiyasını, eləcə də diaspora təşkilatlanmasının və fəaliyyətinin inkişafını müəyyən dərəcədə asanlaşdırmışdır. Digər ölkələrdə də azərbaycanlılar və Türkiyə türkləri arasında diaspora əməkdaşlığı ortaq milli-mədəni maraqlar, tarixi bağlılıqlar və qarşılıqlı sosial əlaqələr əsasında formalaşmışdır. Növbəti mərhələdə isə bu münasibət digər türk icmalarını da əhatə edərək daha geniş türk diaspora şəbəkəsinə çevrilmişdir. Bir sözlə, Azərbaycan və Türkiyə xaricdə yaşayan türk toplumlarına aid icmaları da şəbəkələşməyə cəlb etmək üçün addımlar atırlar (Quliyeva, 2021, s. 115–116; Babanlı, 2023, s. 101–110; Guliyeva, 2025). Bu əməkdaşlıq Azərbaycan və Türkiyə arasında həm ikitərəfli əlaqələri - elmi-mədəni mübadilə proqramları, təhsil sazişləri, diaspor qurumları arasında əlaqələr üzərində qurulmuş (Əsgərova, 2024), həm də çoxtərəfli əməkdaşlıq – Türk Dövlətləri Birliyinin (TDB) koordinasiyası ilə inteqrasiya olunmuşdur. TDB-nə üzv ölkələrin diaspor qurumları arasında əlaqələrin dərinləşdirilməsi, xüsusilə gənclərin diaspor proseslərinə cəlb olunması, təşkilatın son dövrdəki prioritet istiqamətlərindən birinə çevrilmişdir (Ural, 2024; Yesevi, 2024). Azərbaycan diasporasının Türk Dövlətləri Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı və Türk-Amerika Assosiasiyaları Assambleyası kimi platformalardakı fəal iştirakı onun həm mədəni körpü, həm də strateji kimlik dəyəri kimi rolunu göstərir, Azərbaycanın öz sərhədlərindən kənara çıxan mənsubiyyət hissini gücləndirir və geniş türk icmalarının kollektiv mədəni dözümlülüyünü artırır. Bu prosesin davamı yeni tədqiqatları zəruri edir və mövzunun aktuallığını qoruyur.

Nəticə

Azərbaycan diasporasının 1991-ci ildən başlayan həmrəylik prosesinin 35 illik təcrübəsinin təhlili göstərir ki, ilk dövrlərdə Qarabağ müharibəsi və dövlət müstəqilliyinin bərpası diasporanın təşkilatlanmasının və fəaliyyətinin əsas səbəbi idisə, 44 günlük Vətən müharibəsindəki qələbə milli kimliyin, mədəni irsin və milli birliyin qorunmasında daha geniş məzmunda məqsədyönlü fəaliyyətə imkan yaratmışdır.

Araşdırmanın nəticələri post-sovet məkanında diaspora kimliyinin formalaşması, türk dövlətləri arasında inteqrasiya prosesləri və mədəni siyasətin inkişafı ilə bağlı elmi ədəbiyyatın zənginləşdirilməsinə töhfə verir.

Ədəbiyyat

Adamson, F. (2012). Constructing the diaspora: Diaspora identity politics and transnational social movements. In T. Lyons & P. Mandaville (Eds.), *Politics from afar: Transnational diasporas and networks* (25–42). Hurst.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi. (2025, 22 fevral). *Zəfər qurultayı. Qəbul olunmuş sənədlər*. Diaspor.gov.az. https://diaspor.gov.az/az/page/qebul-olunmus-senedler-43

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi. (t.y.). *Hesabatlar*. https://diaspor.gov.az/az/document/hesabatlar-11

Əsgərova, Z. (2024). Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında elmi-mədəni, təhsil və diaspor əlaqələri (1991-2011). *Akademik Tarih ve Düşünce Dergisi*, *11*(5), 3406–3424. https://doi.org/10.46868/atdd.2024.823

Əliyev, H. (1997). *Müstəqilliyimiz əbədidir: Çıxışlar, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar* (Cild 1). Azərnəşr.

Əliyev, H. (2001, 11 noyabr). Dünya Azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. *Azərbaycan*. https://lib.aliyev-heritage.org/az/2428604.html?utm_source=chatgpt.com

Əliyev, İ. (2009). *İnkişaf – məqsədimizdir* (Cild 2). Azərnəşr.

Babanlı, Y. (2023). Azərbaycan və türk diasporalarının beynəlxalq fəaliyyətinin konseptual məsələləri. *World Journal of Human Sciences*, *2*(2), 97–111. https://doi.org/10.55543/insan.1218295

Cohen, R. (2008). *Global diasporas: An introduction* (2nd ed.). Routledge.

Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi. (2024). AMEA Tarix və Etnologiya İnstitutu.

Diminescu, D. (2008). The connected migrant: An epistemological manifesto. *Social Science Information*, *47*(4), 565–579. https://doi.org/10.1177/0539018408096447

Guliyeva, S. (2025). Karabağ Savaşı bağlamında Azerbaycanlıların diaspora eylemleri: Türkiye ve Özbekistan'dan Azerbaycan'a toplumsal destek praksisi. *XI. Uluslararası Türkoloji Kongresi: Türkoloji ve Türk Dünyası bildirileri kitabı* (946–959). Spicaworks. https://drive.google.com/file/d/1YNSkbWjgfibzz-QSqW9P9n7DE6okihrv/view

Hacıyev, A. (2024). Heydər Əliyevin dünya azərbaycanlılarının təşkilatlanmasındakı rolu. *Heydər Əliyev: 101 illik tarixi faktlar. Respublika Elmi Konfransının materialları* (65–68). Füyuzat.

İbrahimli, X. (1997). *Azərbaycan siyasi mühacirəti (1920-1991)*. Elm.

İsgəndərli, S. Z. (2020). Müasir beynəlxalq münasibətlərdə qloballaşma və milli-mədəni kimlik. *Elmi iş, 3*(52), 121–124. https://doi.org/10.36719/AEM/2007-2020/52/121-124

Kərimova, N. (2025). Milli birlik və qlobal kimlik kontekstində 31 Dekabr Həmrəylik Gününün yeri. *Elmi iş. Beynəlxalq Elmi Jurnal*, *19*(12), 57–61. https://doi.org/10.36719/2663-4619/124/57-61

Levitt, P., & Glick Schiller, N. (2004). Conceptualizing simultaneity: A transnational social field perspective on society. *International Migration Review*, *38*(3), 1002–1039. https://doi.org/10.1111/j.1747-7379.2004.tb00227.x

Novruzova, G. (2010). 31 December is World Azerbaijanis' Solidarity Day. *Visions of Azerbaijan*, 30–34. https://www.visions.az/en/news/229/e12f8b7b/?utm_source=chatgpt.com

Paşayeva, U. (2009). XIX-XX əsrlərdə Azərbaycanda miqrasiya proseslərinin tarixi köklərinə dair. *Dünya azərbaycanlıları: tarix və müasirlik*, (3), 216–221. https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Dunya-Az%C9%99rbaycanlilari-Tarix-v%C9%99-muasirlik-V-buraxilis.pdf?utm_source=chatgpt.com

Paşayeva, U. (2023a). Heydər Əliyev və Azərbaycançılıq ideologiyasının təntənəsi. *"Heydər Əliyev və əlyazmalar institutu" Elmi-nəzəri konfransın materialları* (95–99). AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu. https://science.gov.az/az/news/open/24341?utm_source=chatgpt.com

Paşayeva, U. (2023b). Heydər Əliyevin dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində və təşkilatlanmasında rolu. *Bakı Universiteti Xəbərləri*, (2), 177–189.

Quliyeva, S. (2012). Azərbaycanda XIX–XX əsrlərdə miqrasiya proseslərinin nəzəri tədqiqi. *Narody Yevrazii: Istoriya, kultura i problemy vzaimodeystviya. Materialy mezhdunarodnoy nauchno-prakticheskoy konferentsii* (262–274). Sotsiosfera.

Quliyeva, S. (2021). Dünya azərbaycanlılarının həmrəyliyi. *Dünya azərbaycanlıları: tarix və müasirlik*, (8), 110–121.

Safran, W. (1991). Diasporas in modern societies: Myths of homeland and return. *Diaspora: A Journal of Transnational Studies*, *1*(1), 83–99. https://doi.org/10.1353/dsp.1991.0004

Şimşir, S. (1999). *Azerbaycanlıların Türkiye'de siyasi ve kültürel fealiyyetleri (1920-1991)*. Ankara.

Ural, S. (2024). Türk Devletleri Teşkilatı perspektifinden Balkanlardaki Türk diasporası. *Sakarya Üniversitesi Türk Akademi Dergisi*, *3*(1), 1–12. https://doi.org/10.62122/sautad.1472997

Yesevi, Ç. G. (2024). Türk Devletleri Teşkilatı'nın değerlendirilmesi: Yeni bölgeselleşme sürecinde diasporaların ve kültürlerarası diyaloğun önemi. In N. Uslu & M. E. Erendor (Eds.), *Birlik yolunda Türk dünyası ve Türk Devletleri Teşkilatı* (156–162). Kırgızistan-Türkiye Manas Üniversitesi. https://avesis.iku.edu.tr/yayin/d0ddb899-9b72-4bdf-877d-998637015ed4/birlik-yolunda-turk-dunyasi-ve-turk-devletleri-teskilati-turkic-world-on-the-road-to-unity-and-organization-of-turkic-states?utm_source=chatgpt.com